# ƏDƏBİYYATŞÜNASLIQ BİBLİOQRAFİYASININ MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**S.P.İSMAYILOVA**

***Bakı Dövlət Universiteti***

*Məqalədə Azərbaycanda ədəbiyyatşünaslıq biblioqrafiyasının müasir inkşafı vəziyyəti, perspektivləri haqqında məlumat verilmiş, gələcəkdə həlli vacib olan istiqamətlər müəyyənləşdirilmişdir.*

Azərbaycan milli biblioqrafiyasının mühüm tərkib hissəsini ədəbiyyatşünaslıq biblioqrafiyası təşkil edir. Respublikamızda ədəbi-bədii biblioqrafik informasiya fəaliyyətinin uzun bir dövr ərzində qazandığı təcrübə və əldə etdiyi nailiyyətlər aydın şəkildə sübut edir ki, ədəbi-bədii biblioqrafik proses ölkəmizdə ədəbi mühitin və kitabxana-biblioqrafiya fəaliyyətinin ayrılmaz üzvü sahəsi kimi cəmiyyətdə ədəbi-bədii əsərlərin təbliğinə, insanların bədii zövqünün formalaşmasına və ədəbiyyatşünaslıq sahəsində aparılan elmi-tədqiqat işlərinin kitabxana-informasiya təminatına təsir göstərmişdir.

Ədəbiyyatşünaslıq biblioqrafiyası inkişaf edib təkmilləşərək kitabxanaların ümumilikdə biblioqrafik fəaliyyətinin, ədəbi ictimaiyyətin biblioqrafik informasiya mədəniyyətinin yüksəlişinə səbəb olmuş, cəmiyyətdə sənəd-informasiya axtarışı üzrə bir çox maneələrin aradan qaldırılmasına, bu sahədə formalaşmış zəngin sənəd kütləsindən səmərəli istifadə üçün geniş imkanlar açmışdır.

Ədəbi-bədii biblioqrafik vəsaitlərin yaradılmasında ciddi addımlar atılmış, xalqımızın bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və milli biblioqrafiya tarixində əlamətdar hadisələrə çevrilən uğurlu biblioqrafik tədqiqatlar meydana gəlmiş, yeni biblioqrafik mərkəzlər yaradılmış, bu sahədə mütərəqqi ənənələr formalaşmışdır.

Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsindəki biblioqrafik informasiya prosesləri milli ədəbiyyatımızın mühüm yaradıcılıq məsələləri ilə əlaqədar surətdə inkişaf etmiş, onun məzmun, forma və ədəbi əhatəlik xüsusiyyətlərində baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini əsasən əks etdirə bilmişdir.

Respublikamızda dinamik və daim yeniləşən ədəbi-bədii biblioqrafik fəaliyyət, bu sahədə informasiya tələbatçılarına təqdim edilən rəngarəng biblioqrafik vəsaitlər cəmiyyətdə bədii əsərlərin təbliğində, ədəbiyyat tarixi və nəzəriyyəsinə dair aparılan elmi-tədqiqat işlərində müvəffəqiyyətlə istifadə edilir.

XX əsrin sonlarında Azərbaycanın yenidən öz müstəqilliyini bərpa etməsi və yeni iqtisadi inkişaf yoluna keçməsi ilə əlaqədar həyatımızın bütün sahələrində olduğu kimi informasiya sistemində də (o cümlədən biblioqrafk informasiyada) mühüm dəyişikliklər baş vermişdir. Bu həm də biblioqrafik informasiya tələbatçılarının fəallaşması və bu tələbatlarda milli-mənəvi dəyərlərə yiyələnmək zərurətilə bağlı olmuşdur. Müasir dövrdə elə bir şərait yaranmışdır ki, yüksəkixtisaslı mütəxəssislər belə hər hansı məsələ üzrə dolğun informasiya almaq üçün biblioqrafiyanın vasitəçiliyinə ehtiyac duyur. Çünki müəyyən qrup mütəxəssislər yalnız öz ixtisaslarına dair deyil, həm də digər sahələrə, daha çox isə bədii ədəbiyyat və ədəbiyyatşünaslığa dair sənəd kütləsini izləməli olurlar.

Ədəbiyyat axtarışı bu işin metodikasını, mənbələrini bilməyən insan üçün çoxlu zəhmət tələb edir. Bəzən elə olur ki, mövcud olan informasiya, mütəxəssislərə operativ kömək edə bilən, lakin onların xəbəri olmayan nəşrlər illərlə istifadəsiz qalır. Bunu təmin edən vasitəyə böyük ehtiyac duyulur. Sənədlər və informasiya tələbatçıları arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd resurslarından daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən belə vasitəçilərdən biri biblioqrafik informasiyadır.

Biblioqrafiyanın bu missiyasını yerinə yetirməyə kömək edən ən mühüm vasitə biblioqrafik informasiyadır. Yalnız biblioqrafik informasiya sənəd kütləsini hərtərəfli araşdırır, onların daha mühüm nümunələrindən istifadə olunmasına kömək edir. Bu işdə digər informasiya orqanları kimi kitabxanaların rolu əvəzedilməzdir.

Professor A.Xələfov yazır: "Müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya müəssisələrinin ən mühüm vəsiləsi kitabxana sistemləridir" (4).

Müasir sosial - iqtisadi tərəqqi dövründə Azərbaycan Respublikasının tam müstəqillik əldə etdiyi bir şəraitdə kitabxanaların informasiya funksiyası daha böyük əhəmiyyət kəsb edir və bu "Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu"nda da öz real ifadəsini tapmışdır: "Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur" (1).

Müasir dövrdə müstəqil və çox qədim ənənələrə malik olan Azərbaycan ədəbiyyatşünaslığı məzmunlu ilkin mənbələr haqqında biblioqrafik informasiya olmadan, həmin mənbələrdən mütəxəssislərin səmərəli istifadə etmələri mümkün deyil. Elə buna görədir ki, çox zəngin ədəbi-bədii sənəd kütləsi və axını zaman keçdikcə inkişaf edərək zənginləşir, təkmilləşir və

cəmiyyətin ədəbi biblioqrafik informasiyaya olan tələbatının daha dolğun şəkildə ödənilməsinə xidmət edir. Ədəbiyyatşünaslıq üzrə biblioqrafik informasiyanın formalaşdırılması və ehtiyacı olanlara çatdırılması vasitələri onun təsbit olunduğu mənbələrdir. Deməli, "sənəd-kommunikasiyaları sistemi" cəmiyyət üzvlərinin informasiyaya olan tələbatının ödənilməsində əsas amildir. Cəmiyyətdə sənəd tələbatı obyektiv olaraq həmişə var və baş verdiyi dövrün konkret sosial şəraiti ilə şərtləşir.

Azərbaycanda hal-hazırda ədəbi-bədii prosesin biblioqrafik informasiya təminatı, o cümlədən biblioqrafik vəsaitlər sisteminin formalaşması bu sahənin reallıqlarını əks etdirən, onun gələcək inkişafını müəyyənləşdirən elmi-biblioqrafik metod kimi formalaşmışdır.

Bu dövrdə meydana gəlmiş ədəbi-bədii biblioqrafik vəsaitlər məqsəd, oxucu istiqaməti, növ, biblioqrafiyalaşdırma metodikası, nəşr forması baxımından rəngarəng, xalqımızın ədəbi, mədəni-mənəvi həyatındakı yenilikləri, aparıcı inkişaf meyllərini qavrayıb təcrübəyə tətbiq edən yaradıcı fəaliyyətin nəticəsi kimi təzahür etmişdir. Məhz bu biblioqrafik vəsaitlər sistemi ölkədə bədii ədəbiyyat və ədbiyyatşünaslıq sahəsinin sənəd kommunikasiya sistemindəki maneələrin aradan qaldırılmasına səmərəli təsir göstərmişdir.

XX əsrin sonu, XXI əsrin əvvəllərində meydana gəlmiş çoxsaylı ədəbi –bədii biblioqrafik vəsaitlər özünəqədərki bu mürəkkəb və yaradıcı fəaliyyətin tarixi ənənələrinin bütün qabaqcıl keyfiyyətlərini mənimsəyib inkişaf etdirmiş, yeni, müasir biblioqrafik informasiya meyllərini özündə bu və ya digər dərəcədə əks etdirmişdir.

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinə həsr edilmiş elmi-köməkçi biblioqrafik vəsaitlərin tərtibində göstərilən mütərəqqi meyllər özünü bir daha "Elçin" biblioqrafik göstəricisində nümayiş etdirmişdir.(2)

Biblioqrafik göstərici respublikamızın tanınmış yazıçısı və ictimai-dövlət xadimi Elçin Əfəndiyevin 1959-1996-cı illərdə Azərbaycan, rus, və digər xarici ölkə xalqlarının dillərində çap edilmiş bədii əsərlərini, publisistikasını, elmi-tənqidi yazılarını, o cümlədən monoqrafiya və elmi məqalələrini, həmçinin müxtəlif sessiya, simpozium və elmi konfranslardakı məruzə və çıxışlarını, müqəddimə yazdığı və redaktə etdiyi əsərləri əhatə edir. Vəsaitdə həmçinin ədibin həyat və yaradıcılığı, ictimai fəaliyyəti haqqında ədəbiyyat əks etdirilmişdir. Biblioqrafik göstərici çox zəngin yardımçı aparata malik olub, ədibin həyat və yaradıcılığı, onun əsərlərinin nəşri, tərcüməsi, nəşriyyatlar, redaktorlar, tərcüməçilər, dövri nəşrlər və s. müəllifin əsərlərinin nəşri ilə əlaqədar şəxsiyyətlər və kollektivlər haqqında geniş məlumat verir. Bu vəsaiti digər elmi-köməkçi göstəricilərdən fərqləndirən əsas xüsusiyyət onun çox dəqiq və elmi-biblioqrafik cəhətdən düzgün müəyyənləşdirilmiş

struktur quruluşa malik olmasıdır. Belə ki, bu biblioqrafik tədqiqat bir neçə bölmədən ibarət olan giriş hissəsi ilə yanaşı özündə 30-dan çox bölməni birləşdirən dörd əsas hissədən, 21 yardımçı aparatdan ibarət "Köməkçi göstəricilər" adlandırılmış xüsusi bölmədən ibarətdir.

Vəsaitin giriş hissəsində göstərici haqqında professor Zöhrab Əliyevin rəyi, sonra E.Əfəndiyevin əsərlərinin nəşri haqqında qısa oçerk, ədibin həyat və yaradıcılığının əsas tarixləri və ədib haqqında ədəbiyyat və mədəniyyət xadimlərinin fikirləri təqdim edilir.

Biblioqrafik göstəricinin I hissəsində müəllifin Azərbaycan dilində kitabları, redaktə etdiyi kitablar, dövrü mətbuatda və müxtəlif məcmuələrdə dərc edilmiş bədii əsərləri, ədəbi-tənqidi və publisistik məqalələri, tərcümələri və əsərləri haqqında ədəbiyyat verilmişdir. Bütün mənbələr hər bir bölmə daxilində əlifba sırası ilə düzülmüşdür.

Vəsaitin II hissəsində ədibin həyat və yaradıcılığı haqqında Azərbaycan dilində ədəbiyyat verilmiş və sənədlər aşağıdakı bölmələr üzrə qruplaşdırılmışdır:

I. Həyat və yaradıcılığı haqqında;
II. Azərbaycan Yazıçılar İttifaqındakı fəaliyyəti;
III. "Vətən" cəmiyyətindəki fəaliyyəti;
IV. Baş nazirin müavini kimi fəaliyyəti.

Biblioqrafik göstəricinin III hissəsi Elçin Əfəndiyevin əsərlərinin rus dilindəki nəşrlərini və onun həyat və yaradıcılığı haqqında rus dilində nəşr edilmiş ədəbiyyatı əhatə edir. Materialların sistemləşdirilməsi əsasən göstəricinin Azərbaycan dilindəki mənbələri əhatə edən hissəsinə uyğun şəkildə təşkil edilmişdir: kitabları, müqəddimə yazdığı əsərləri, dövri mətbuat materialları, ədəbi-tənqidi və publisistik məqalələri, ictimai fəaliyyəti, ekranlaşdırılmış əsərləri, filmləri haqqında ədəbiyyat, həyat və yaradıcılığı haqqında ədəbiyyat. Bu hissədə materiallar Azərbaycan dilindəki sənədlər kimi əlifba prinsipi əsasında düzülmüşdür.

Biblioqrafik göstəricinin IV hissəsi ədibin xarici dillərdə nəşr edilmiş əsərlərini və onun haqqında ədəbiyyatı əks etdirir. Burada ədibin keçmiş SSRİ respublikaları və digər xarici ölkələrdə nəşr edilmiş əsərləri və onun həyat və yaradıcılığı, eləcə də ayrı-ayrı əsərləri haqqında müxtəlif ölkələrdə (Bolqarıstan, Belorusiya, Çexiya, ABŞ, Almaniya, Türkiyə, Macarıstan, İraq, Qazaxıstan, Polşa, Rusiya və s.) dərc edilmiş əsərlərinin nəşrinin mükəmməl təsviri verilmiş və müəllif haqqında xarici ölkələrdə dərc edilmiş çoxsaylı mənbələr toplanmışdır. Materialların düzülüşü ölkələrin əlifba sırasına görə sistemləşdirilmişdir. Hər bir ölkəyə həsr olunmuş bölmə daxilində də mənbələrin düzülüşündə əlifba prinsipi əsas götürülmüşdür.

Nəhayət, biblioqrafik göstəricidə diqqəti cəlb edən xüsusiyyət burada orijinal köməkçi göstəricilər sisteminin yaradılmasıdır. Belə ki, burada vəsaitə

daxil olan çoxsaylı və çoxdilli sənədlərin müxtəlif axtarış əlamətlərinə görə müəyyənləşdirilməsini təmin edən 21 yardımçı göstərici tərtib edilmişdir. Bu yardımçı göstəricilər vasitəsilə ədibin Azərbaycan, rus və xarici dillərdə nəşr edilmiş əsərlərini, redaktə etdiyi əsərləri, ( kitabları və məqalələrini) tərcümələrini, onun əsərlərinin redaktorlarını, rəyçilərini, yazıçının ssenarilərini, səhnələşdirilmiş və ekranlaşdırılmış əsərlərini, nəşriyyatların, dövri orqanların adlarını, müəllifin əsərləri çap edilən ölkələrin adlarını və tərcümə edilmiş əsərlərinin sərlövhələrini operativ və dəqiq müəyyənləşdirmək mümkün olur. Vəsaitdə bütövlükdə 1152 adda mənbə əhatə edilmişdir. Vəsaitin müəllifi Bəybala Ələsgərovun gərgin zəhməti və hərtərəfli axtarışları nəticəsində meydana gəlmiş bu tədqiqat əsəri Azərbaycan ədəbi-bədii biblioqrafiyasının nailiyyəti hasab olunur.

Bu biblioqrfik vəsaitin ən qiymətli cəhəti ilk növbədə onun mükəmməlliyidir. Belə ki, göstəricidə ədibin həyatı, ictimai fəaliyyəti və yaradıcılığının tam biblioqrafik salnaməsi yaradılmışdır. Vəsaitdə Elçin Əfəndiyevin həyat və yaradıcılığının bütün məqamları, onun ədəbi laboratoriyası bütövlükdə tələbatçıların nəzərində canlanır. Göstəricinin istər məzmunu və istərsə də quruluşunda özünəməxsusluğu diqqəti cəlb edir.

“Elçin” bibloqrafik göstəricinin təhlilini bu vəsait haqqında professor Zöhrab Əliyevin aşağıdakı sözləri ilə yekunlaşdırmaq istərdik: “Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Elçin haqqında biblioqrafik göstərici başqa şəxsi biblioqrafik vəsaitlər sistemində özünəməxsus yer tutacaqdır və Azərbaycan ədəbiyyatı üzrə biblioqrafik axtarışda mühüm rol oynayacaqdır” (3).

Müasir Azərbaycan ədəbiyyatının bünövrəsini qoyanlardan biri olan görkəmi nasir, ədəbiyyatşünas alim, pedaqoq Mir Cəlal Paşayevə həsr edilmiş ilk biblioqrafik göstərici ədibin 60 illik yubileyi münasibətilə tərtib edilmişdir. Mir Cəlal Paşayev haqqında növbəti şəxsi biblioqrafik göstərici 1998-ci ildə ədibin 90 illik yubileyi münasibətilə M.F.Axundov adına Dövlət Kitabxanası tərəfindən çap edilmişdir. Bu biblioqrafik göstərici 1968-ci ildə tərtib edilmiş vəsaitin məntiqi davamı olaraq 1969-1998-ci illər ərzində Mir Cəlalın əsərləri, həyat və yaradıcılığı haqqında müxtəlif dillərdə olan materialları əhatə edir.

Bu biblioqrafik mənbədə Mir Cəlalın 30 adda kitabı, 115 adda ədəbi-bədii və publisistik məqaləsi, eyni zamanda ədibin həyat və yaradıcılığına həsr olunmuş 7 adda kitab və 26 adda məqalə haqqında biblioqrafik məlumat öz əksini tapıb (6).

Müstəqillik şəraitində Mir Cəlal yaradıcılığına tələbatçı marağının gündən-günə artması, yeni, daha mükəmməl, xronoloji əhatəlik baxımından daha bitkin bir məlumat kitabının yaradılması zərurətini meydana çıxarmışdır. Bu məqsədlə M.F.Axundov adına Milli Kitabxana ədibin irsini bütöv-

lükdə əks etdirən sonuncu əsaslı şəxsi biblioqrafik göstəricini hazırlayıb çap etdirmişdir. Bu biblioqrafik göstəricinin nəşri ilə Milli Kitabxana "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasının əsasını qoyub. "Mir Cəlal" adlı biblioqrafik tədqiqat 1926-cı ildən 2006-cı ilə kimi ədibin yaradıcılığı, haqqında olan mənbələrin biblioqrafik təsvirini verən çox zəngin informasiya mənbəyidir. (7) Biblioqrafik vəsaitə xalq yazıçısı, professor Elçin "Sadəlik və müdriklik (Müəllim haqqında söz)" adlı giriş məqaləsi yazmışdır. Məqalədə Mir Cəlal müəllimin portiretinin əsas cizgiləri haqqında dolğun təsəvvür yaradılmış, sevimli müəllim haqqında səmimiyyətlə söhbət açılmışdır. Biblioqrafik vəsaitin ilk bölməsi "Mir Cəlalın həyat və yaradıcılığının əsas tarixləri" adlanır. Bölmədə Mir Cəlal müəllimin həyat və yaradıcılığı haqqında biblioqrafik məlumat xronoloji ardıcıllıqla verilmişdir.

"Əsərləri" adlanan 2-ci bölmədə ədibin 1926-2006-cı illərdə Azərbaycan dilində çapdan çıxmış 80 adda kitabı, 774 adda bədii, ədəbi-tənqidi və publisistik məqaləsi, 9 adda tərcümə əsəri, başqa dillərdə çap olunmuş kitab və 23 məqaləsi, redaktə etdiyi 26 adda əsər və rəhərlik etdiyi 36 adda dissertasiya işinin biblioqrafik təsviri verilmişdir. Bu bölmədən məlum olur ki, Mir Cəlalın ilk kitabı 1932-ci ildə "Sağlam yollarda" adı ilə çapdan çıxıb. Ədibin sonuncu kitabı isə 2005-ci ildə Ədibə Paşayeva tərəfindən tərtib olunmuş "Seçilmiş əsərləri" adı ilə hekayələr və romanlar kitabıdır.

Biblioqrafik vəsaitin "Dissertasiyalara elmi rəhbərlik" yarımbölməsi böyük alimin elmi məktəbi, rəhbərlik etdiyi namizədlik və doktorluq dissertasiyaları haqqında dolğun təsəvvür yaradır. Mir Cəlal müəllim 1949-1975-ci illər ərzində 36 adda dissertasiyaya rəhbərlik etməklə çağdaş milli ədəbi mühitin formalaşmasında müstəsna rol oynamışdır. Kamal Talıbzadə, Bəxtiyar Vahabzadə, Cəlal Abdullayev, Təhsin Mütəllimov, İnayət Bektaşi, Abdulla Abbasov və başqaları Mir Cəlal müəllimin rəhbərliyi ilə yetişmiş nəslin parlaq nümayəndələridir.

Vəsaitin 3-cü bölməsi "Mir Cəlalın həyat və yaradıcılığı haqqında" adlanır. Bu bölmədə Mir Cəlal haqqında Azərbaycan dilində yazılmış 10 adda kitab və 417 adda məqalənin biblioqrafik təsviri öz əksini tapıb. Ümumiyyətlə, biblioqrafik göstərici zəngin faktiki materiallar əsasında tərtib edilmişdir.

Bu biblioqrafik məlumat kitabı yalnız əsas mətndə verilmiş biblioqrafik informasiyalarla məhdudlaşdırılmamış, onun müəllifi zəngin köməkçi göstəricilər yaratmağa müvəffəq olmuşdur. Vəsaitdə bölmə və yarımbölmələrə müvafiq Azərbaycan və rus dillərində 15 adda köməkçi göstərici tərtib olunub. Qeyd etmək lazımdır ki, bəhs etdiyimiz sonuncu göstərici 3 şəxsi biblioqrafik vəsait içərisində ən mükəmməlidir. Təkcə bir faktı qeyd etmək yetər ki, 1968-ci ildə çap olunmuş şəxsi biblioqrafik göstəricidə Mir Cəlalın ilk qələm təcrübəsi kimi 1928-ci ildə "Maarif yolu" jurnalının 9-cu sayında

işıq üzü görən "Dənizin cinayəti" adlı şeridir. Lakin tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ədibin ilk mətbu məqaləsi 1926-cı ildə "Yeni fikir" qəzetində dərc olunmuş "Dinsizlər ittifaqı nasıl çalışmalıdır?" adlı ədəbi-tənqidi məqaləsidir. Bu məlumat məhz 2006-cı ildə çap olunmuş şəxsi göstəricidə öz əksini tapıb. Bu baxımdan həmin göstərici Mir Cəlalın əsərləri və ona həsr olunmuş mənbələrin biblioqrafik modelini yaradan universal xarakterli məlumat kitabıdır. Mir Cəlal Paşayev irsinin tədqiqi və öyrənilməsi baxımından mütəxəssislərin və geniş oxucu kütləsinin biblioqrafik informasiya təminatında olduqca əhəmiyyətli olan bu mənbələr çox qiymətlidir.

Azərbaycanda ədəbi biblioqrafiya təcrübəsi sübut edir ki, bu sahədə biblioqrafik vəsaitlərin tərtibində ədəbiyyatşünas alimlərin yaxından iştirakı çox yaxşı nəticələr verir. Bu prosesdə ədəbiyyatşünas alimlərlə təcrübəli biblioqrafların əlaqələndirilmiş fəaliyyəti elmi baxımdan yüksək səviyyədə hazırlanmış biblioqrafik vəsaitlərin meydana gəlməsinə səbəb olur.

XX əsrdə bir sıra görkəmli ədəbiyyatşünas alimlər bu və ya digər dərəcədə biblioqrafik fəaliyyətlə məşğul olmuş və qiymətli biblioqrafik tədqiqatlar yaratmışlar. Bunlara misal olaraq Firudin Bəy Köçərlini, Feyzulla Qasımzadəni, Həmid Araslını, Nazim Axundovu, Həbib Babayevi, Əziz Mirəhmədovu, Rasim Tağıyevi göstərmək olar.

Keçən əsrin 70-80-ci illərində formalaşmış bu mütərəqqi ənənə 90-cı illərdə də uğurla davam etdirilmişdir. Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru İfrat Əliyeva tərəfindən 1997-ci ildə xalq şairi Bəxtiyar Vahabzadəyə həsr edilmiş biblioqrfik göstərici tərtib edilmişdir. Həmin vəsaitin peşəkar biblioqraf Əşrəf Xələfov tərəfindən redaktə edilməsi, onun yüksək biblioqrafiyalaşdırma metodları əsasında tərtib edilməsini şərtləndirmişdir.

Ədəbiyyatşünas alim, Bəxtiyar Vahabzadənin tədqiqatçısı və biblioqrafiyaşünas alimin əlaqəli fəaliyyəti nəticəsində bu böyük sənətkara həsr edilmiş mükəmməl biblioqrafik informasiya vəsaiti meydana gəlmişdir. Bu vəsaitin əsas məziyyəti onun Bəxtiyar Vahabzadə irsinin biblioqrafik mənbələr əsasında tam və dolğun əhatə edilməsi, sənədlərin məqsədyönlü biblioqrafiyalaşdırılmasıdır.

XX əsrin II yarısında Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının inkişafını təmin edən şərtlərdən biri də bu sahədə yeni peşəkar biblioqraf kadrların meydana gəlməsi olmuşdur. Həmin dövrdə biblioqrafik fəaliyyətlə məşğul olan iri elmi kitabxanalarımıza BDU-nun kitabxanaşünas-biblioqraf ixtisası üzrə ali təhsil almış, gənc, istedadlı kadrlar bu prosesə fəal surətdə cəlb edilmiş, onların yaradıcılıq fəaliyyəti, elmi bilikləri meydana gələn yeni biblioqrafik vəsaitlərdə öz əksini tapmışdır.

Azərbaycanda ədəbi-bədii mühitin müasir inkişaf səviyyəsi, burada baş verən keyfiyyət dəyişiklikləri bu sahənin biblioqrafik informasiya sistemi qarşısında yeni ciddi vəzifələr qoyur.

XXI əsrdə Azərbaycan milli biblioqrafiyasının informasiya potensialının mühüm tərkib hissəsini ədəbi-bədii biblioqrafik vəsaitlər sisteminin təşkil etməsi artıq fakta çevrilmişdir. Xüsusilə, son 50 ildən artıq bir dövr ərzində ölkəmizdə ədəbiyyatşünaslığın sənəd kütləsinin biblioqrafiyalaşdırılması prosesi getdikcə təkmilləşmiş, ədəbi-bədii məkanın mühüm infrasrukturu və ayrılmaz tərkib hissəsi kimi onun inkişafına səmərəli təsir göstərən zəngin sənəd-informasiya bazasına çevrilmişdir. Bu zəngin elmi, ədəbi-bədii xəzinənin təşəkkülü və formalaşmasında respublikamızın elmi kitabxanalarının, peşəkar biblioqraflar nəslinin, bir sıra ədəbiyyatşünas alimlərin böyük xidmətləri olmuşdur.

İnformasiya əsri adlandırılan XXI əsrdə Azərbaycan ədəbi biblioqrafik informasiya sisteminin müasir texnologiyaya əsaslanan fəaliyyət sahəsi kimi yeniləşməsi, onun elmi, ictimai və kommunikativ funksiyasının təkmilləşməsi, struktur quruluşu və nəşr növlərinin zənginləşməsi, nəzəri-metodiki əsaslarının güclənməsi zəruri məsələ kimi meydana çıxır.

Bu prosesə təsir edən amillərdən ən mühümü XX əsrin mühüm kəşflərindən biri olan yeni informasiya texnologiyalarının – İnternetin sürətlə inkişaf etməsi, onun elm, mədəniyyət, ədəbiyyat və incəsənətin bütün sahələrinə sirayət etməsi və geniş şəkildə tətbiq olunmasıdır. Müasir informasiyalaşdırılmış cəmiyyətin xarakterik cəhətlərindən biri İnternet dünyasında informasiya ehtiyatlarının və məlumat bazalarının sürətli artımıdır. Mövcud informasiya ehtiyatlarından ədəbiyyatşünas mütəxəssislərin səmərəli istifadəsini təşkil etmək məqsədilə 2002-ci ilin yanvar ayında AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda “İnformasiya və biblioqrafiya” şöbəsi fəaliyyətə başlamışdır.“İnformasiya və biblioqrafiya” şöbəsi Azərbaycan ədəbiyyatşünaslığının son nailiyyətlərinin “İnternet” vasitəsilə dünya elminə inteqrasiya edilməsi, dünya miqyasında müvafiq informasiyaların toplanması və tələbatçılara çatdırılmasını təmin edir. Habelə, “İnternet” şəbəkələr sistemindən alınmış informasiyalar əsasında dünya ədəbiyyatşünaslığının son nailiyyətlərini əks etdirən büllütenin nəşr edilməsi mütəxəssis ədəbiyyatşünasların biblioqrafik informasiya təminatında mühüm rol oynayır. Nizami adına Ədəbiyyat İnstitutunun “İnformasiya və biblioqrafiya” şöbəsi tərəfindən tərtib edilib nəşr olunan “Ədəbiyyatşünaslıq.İnformasiya bülleteni” adlı toplu mövzu və məzmun əhatəliyi baxımından çox zəngin mənbədir. Azərbaycanda bu sahə üzrə informasiyanı çətinliklə əldə edən mütəxəssislər bi bülletendən istifadə etməklə özlərinə lazım olan informasiyanı topludan istifadə etməklə İnternet dünyasından əldə edə bilirlər.

İnformasiya bülleteninin əvvəlində verilmiş “məlumat”da deyilir: “Zəmanəmizin əsas xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, indi alim, hüquqşünas, mühəndis, müəllim, jurnalist və s. Sahələrdə çalışan bütün mütəxəssislər informasiya axını qarşısında çaş-baş qlır. Mövzu ilə əlaqədar nə oxumalı? Lazım olan materialları haradan və necə tapmalı? Bu günün tədqiqatçısı nəhəng Himalay dağlarında qızıl dənələri axtaran ğeoloqun vəziyyətindədir” (5).

İnformasiya bülleteninin qarşısına qoyduğu əsas məqsəd Azərbaycan ədəbiyyatşünaslığı haqqında İnternet dünyasında məlum olan informasiyanı əldə etməkdir. Məsələn, Məhəmməd Füzuli (www kultur.qov.tr), “XV-XVI əsrlərin Azərbaycan ədəbiyyatı” (www azeriros.ru/az).

İnformasiya bülleteninin əsas əhəmiyyətindən biri də çağdaş dünya ədəbiyyatşünaslığı sahəsindəki elmi yeniliklərlə mütəxəssisləri tanış etməkdir. Müasir dövrdə informasiya texnologiyalarına yiyələnən ədəbiyyatşünas alimlərin biblioqrafik informasiya təminatında bu mənbənin rolu olduqca böyükdür. Belə ki, milli ədəbiyyatşünaslığımız öz uğurlarını təbliğ etməklə yanaşı, dünya İnternet resurslarından da lazımınca bəhrələnir.

Ədəbiyyatşünaslıq biblioqrafiyasının müasir vəziyyətindən bəhs edərkən bu sahə üzrə elektron biblioqrafik informasiya mənbələrinin də əhəmiyyətini qeyd etmək lazımdır.

Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə elektron biblioqrafik mənbələrin yaradılması problemi ümumilikdə milli biblioqrafik ehtiyatların yaradılması probleminin tərkib hissəsidir və buna görə də həmin problemə kompleks yanaşılmalıdır.

Respublikamızda digər elm sahələri kimi ədəbiyyatşünaslıq sahəsində rəqəm biblioqrafik resursun yaradılması və istifadə edilməsi XX əsrin 80-ci illərinin əvvəllərinə təsadüf edir. Lakin bir sıra təşkilati, maliyə problemləri nəticəsində bu proses ləng gedirdi və SSRİ-nin dağılması ərəfəsində bu işlər demək olar ki, dayandırılmışdır.

Azərbaycanda biblioqrafik fəaliyyətdə informasiya texnologiyalarının növbəti, keyfiyyətcə yeni mərhələsi 2000-ci illərə təsadüf edir. Bu dövrdə respublikamızın beynəlxalq, siyasi, iqtisadi və mədəni əlaqələr sisteminə daha intensiv cəlb edilməsinin tərkib hissəsi və nəticəsi kimi kitabxana-biblioqrafik fəaliyyətdə də dünyada mövcud olan metodlar və texnologiyalar ölkəmizdə tətbiq edilməyə başladı. Bu prosesin məntiqi nəticəsi kimi bir sıra kitabxanalarda, kitab fonduna malik ictimai təşkilatlarda biblioqrafik informasiyanın kompyuterlə işlənərək verilənlər bazalarının yaradılması sahəsində ilkin təcrübələr aparılmağa başladı.

Məsələn, 2000-ci ildən etibarən İSAR humanitar təşkilatında, 2001-ci ildən etibarən Gələcək naminə Gənclər təşkilatının kitabxanasında və bir sıra təşkilatlarda kiçik də olsa biblioqrafik verilənlər bazaları yaradılmağa başladı.

Belə ki, 2001-ci ildən Xəzər Universitetinin Elmi kitabxanasında, BDU-nin Elmi kitabxanasında elektron kataloqun yaradılmasına başlanıldı. BDU-nun Elmi kitabxanasında Əməkdar elm xadimi, professor Abuzər Xələfovun rəhbərlik etdiyi "Kitabxanaların kompyuterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının iştirakı ilə kitabxanada Azərbaycan ədəbiyyatı fondunda, dissertasiyalar və nadir ədəbiyyat fondunda olan xeyli kitab və dissertasiyaların elektron biblioqrafik yazısı tərtib edilmişdir.

Respublikamızda kitabxanaların elektron biblioqrafik ehtiyatlarının işlənməsi və onun tələbatçılara verilməsi sahəsində digər əhəmiyyətli addım Gələcək naminə İctimai Birliyin və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə icra etdiyi və Exxonmobil Şirkətinin yardımı ilə həyata keçirilən "Elektron kitabxana şəbəkəsi" layihəsi olmuşdur. 2002-ci ildən həyata keçirilən bu layihəyə əsasən respublikanın 12 əsas kitabxanasının (əsasən ali məktəb və respublika səviyyəli kitabxanalar) və 4 ictimai təşkilatın kitabxanası fondunda olan 100 min sənədin biblioqrafik yazısı tərtib edilərək WEB – serverə yerləşdirilmişdir və bununla da dünyada bütün İnternet istifadəçiləri üçün istifadə imkanı açılmışdır.

Elektron kitabxana şəbəkəsi BDU ilə yanaşı M.F.Axundov adına Milli Kitabxana, Dövlət İqtisad Universiteti, Dövlət Neft Akademiyası, Dövlət Dillər Universiteti, Tibb Universiteti, MEA-nın kitabxanalarını əhatə edir.

Verilənlər bazasının menyusu 4 aspekt üzrə axtarışı həyata keçirməyə imkan verir. Bunlar axtarış, mövzu, kitabxana və dil aspektləridir.Axtarış adlı aspektdə müəllif, sərlövhə, söz əlamətləri üzrə, mövzu aspekti üzrə isə UOT-un 9 bölməsi üzrə axtarış aparmaq mümkündür. Ədəbiyyatşünaslıq və bədii ədəbiyyat üzrə 8-ci mövzu bölməsi üzrə axtarış aparmaq mümkündür.

Digər elektron biblioqrafik mənbə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin kitabxanasına məxsusdur. Kitabxanada biblioqrafik verilənlər bazasının yaradılmasına 2004-cü ilin may ayından başlanmışdır. Verilənlər bazası kitabxanada tətbiq edilən İRBİS-64 Kitabxanaların Avtomatlaşdırılması sisteminin tərkib hissəsidir. Verilənlər bazasına Azərbaycan, rus və digər dillərdə olan 6000-ə yaxın sənədin biblioqrafik yazısı daxil edilmişdir ki, bunun da 20%-ni bədii ədəbiyyat, ədəbiyyatşünaslıq üzrə materiallar təşkil edir. Verilənlər bazası həm kitabxanadakı avtomatlaşdırılmış sistemdən, həm də WEB kataloqu vasitəsilə İnternetdən müyəssərdir.

Azərbaycanda ədəbi-bədii biblioqrafiyanın müasir inkişaf səviyyəsi, burada baş verən keyfiyyət dəyişiklikləri bu sahənin gələcək inkişafı qarşısında ciddi vəzifələr qoyur. Bu vəzifələr hər şeydən əvvəl ədəbi-bədii biblioqrafik fəaliyyətdə mühüm rol oynayan mərkəzlərin biblioqrafik fəaliyyəti ilə əlaqədardır. Bu mərkəzlər içərisində M.F.Axundov adına Milli Kitabxana, AMEA-nın Mərkəzi Elmi Kitabxanası və Nizami adına Ədəbiyyat İnstitutunun biblioqrafik fəaliyyəti diqqət mərkəzindədir.

M.F.Axundov adına Milli Kitabxana respublikada çap əsərlərinin, o cümlədən ədəbi-bədii nəşrlərin dövlət qeydini, nəhayət ölkə mətbuatının statistik uçotunu aparmaq istiqamətindəki fəaliyyətini yeni tələblərə uyğun şəkildə təşkil edərək "Birillik Azərbaycan kitabiyyatı"nın nəşrini bərpa etmişdir. Vəsaitdə bədii ədəbiyyat və ədəbiyyatşünaslığa dair materiallar "Ədəbiyyatşünaslıq" və "Azərbaycan ədəbiyyatı" bölməsində sistemləşdirilmişdir.

Milli Kitabxana qarşısında duran vəzifələrdən ən əsası respublikada çap əsərlərinin, o cümlədən ədəbi-bədii nəşrlərin dövlət qeydini, cari biblioqrafik informasiya nəşrlərini əks etdirən "Azərbaycan mətbuat salnaməsi"nin bərpa edilməsidir.

Müasir dövrdə Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyasının biblioqrafik informasiya təminatında mühüm rol oynaya biləcək müstəqil sahəvi cari biblioqrafik informasiyanı özündə əks etdirən siqnal, referativ və analitik xarakterli informasiya nəşrlərinin olmamasıdır. Gələcəkdə həlli vacib olan bu problem AMEA-nın Mərkəzi Elmi Kitabxanasının, M.F.Axundov adına Milli Kitabxananın və BDU-nun Elmi Kitabxanasının əlaqələndirmə və ixtisaslaşma prinsipləri əsasında cari biblioqrafik informasiya mənbələrinin yaradılması bu sahədəki mövcud boşluqları doldurmuş olacaqdır.

Azərbaycan ədəbiyyatşünaslıq biblioqrafiyasının gələcək perspektivlərindən bəhs edərkən bu sahənin mühüm istiqamətlərini təşkil edən "Uşaq ədəbiyyatı"nı və "Folklorşünaslıq" materiallarını özündə əks etdirən müstəqil elmi-köməkçi xarakterli biblioqrafik informasiya mənbələrinin olmamasıdır. Uğurlu və ciddi axtarışların nəticəsi olaraq yeni bir nəşr olan "Folklor kitabı" adlı vəsait filologiya elmləri doktoru A.K.Əliyeva tərəfindən tərtib edilib 2010-cu ildə nəşr edilmişdir. Gələcəkdə həlli vacib olan məsələlərdən biri də Azərbaycan ədəbiyyatının ən aktual problemlərinə dair materialları əks etdirən mövzu biblioqrafik informasiya mənbələrinin yaradılmasıdır.

Müasir dövrdə biblioqrafik fəaliyyətin digər sahələrində olduğu kimi. ədəbi-bədii biblioqrafiyalaşdırma yeni informasiya texnologiyalarının tətbiqi ilə mümkün olur. Bu baxımdan ədəbi-bədii biblioqrafik proseslərin kompyuterləşdirilməsi, ədəbi-bədii biblioqrafik ehtiyatların yerləşdirilməsi və istifadəsinin intensivləşməsi qarşıda duran vacib problemlərdəndir.

## *ƏDƏBİYYAT*

*1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. 1999. №1. s.3-16.*

*2. Elçin (Əfəndiyev Elçin İlyas oğlu): Biblioqrafiya/M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası.-Bakı.: 1997. 206 s.*

*3. Əliyev Z.H. Rəy // Elçin (Əfəndiyev Elçin İlyas oğlu): Biblioqrafiya /M.F.Axundov ad.Azərbaycan Dövlət Kitabxanası. B.,1997. s.9.*

*4. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri //Respublika. 2002. 17 aprel.*

*5. İsmayılova S.Müstəqillik illərində ədəbi biblioqrafiyanın inkişafı vəziyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-Bakı: BUN, 2008. №1. s.164-173.*

*6. Mir Cəlal Paşayev: Biblioqrafiya / M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası. B.,1998. 70 s.*

*7. Mir Cəlal Paşayev: Biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana. B., 2006. 226 s.*

## *MODERN PERSPECTIVES AND DEVELOPMENT OF LITERATURE BIBLIOGRAPHY*

***S.P.İSMAYILOVA***

### *SUMMARY*

*The article studies the present state and perspectives of Azerbaijan Literature Biblioqraphy. Main directions of development bibliographic resources are analyzed.*

## *СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ЛИТЕРАТУРОВЕДЧЕСКОЙ БИБЛИОГРАФИИ*

***С.П.ИСМАИЛОВА***

### *РЕЗЮМЕ*

*В статье рассматриваются проблемы современного состояния и перспективы азербайджанской литературоведческой библиографии. Анализируются основные направления развития библиографических ресурсов.*